"Qələmin müqəddəs vəzifəsi xalqın xoşbəxtliyi yolunda xidmət etməkdir"
*Cəlil Məmmədquluzadə*



# ÇIRAQ

aprel-may 2016-cı il № 4-5 (238-239) Qəzet 1992-ci ildən çıxır. Siyəzən rayonunun ictimai-siyasi qəzeti. Qiyməti müqavilə yolu ilə

## AYIN RƏSMİ XRONİKASI

Mayın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Ermənistan silahlı qüvvələri ilə təmas xəttində yerləşən Tərtər, Ağdam və Bərdə rayonlarında olublar. Dövlətimizin başçısı əvvəlcə Tərtər rayonundakı «N» saylı hərbi hissəyə gəldi. Prezident İlham Əliyev hərbi hissənin qərargahı ilə tanış oldu. Müdafiə naziri Zakir Həsənov təmas xəttindəki son vəziyyət barədə Ali Baş Komandan İlham Əliyevə məlumat verib. Dövlətimizin başçısı hərbi hissənin yeməkxanası ilə də tanış oldu.



Mayın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva aprelin 27-dən 28-nə keçən gecə işğalçı Ermənistan ordusu tərəfindən iriçaplı silahlar və artilleriya qurğularından açılmış atəş nəticəsində Tərtər şəhərinin Fikrət Əmirov küçəsində dağılmış evlərə baxdılar.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mayın 1-də cəbhə bölgəsinə səfər çərçivəsində Ağdam rayonunun təmas xəttində yerləşən Mahrızlı kəndinə gəldilər. Dövlətimizin başçısı və xanımı Ermənistan ordusunun vəhşilikləri nəticəsində kənddə yaranmış vəziyyətlə tanış oldular, sakinlərlə görüşdülər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də paytaxt Bakının Nizami rayonundakı Mikayıl Əliyev küçəsində aparılan yenidənqurma işləri ilə tanış olub.

Mayın 4-də Bakının 8-ci Kilometr qəsəbəsindəki Qara Qarayev prospekti ilə Naxçıvani küçələrinin kəsişməsində inşa olunan çoxmərtəbəli avtomobil dayanacağı istifadəyə verilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dayanacağın rəmzi açılışını bildirən lenti kəsdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də paytaxtın Nizami rayonunun 8-ci Kilometr qəsəbəsindəki Heydər bağında yaradılan şəraitlə tanış olub. Bildirilib ki, bu istirahət guşəsi 1997-ci ilin mayında ulu öndər Heydər Əliyevin iştirakı ilə açılıb.

İkinci Dünya müharibəsində faşizm üzərində Qələbənin 71-ci ildönümü münasibətilə mayın 9-da Bakıda təntənəli mərasim keçirilib. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və xanımı Mehriban Əliyeva mərasimdə iştirak ediblər.

Mayın 9-da Heydər Əliyev Mərkəzində xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü və faşizm üzərində Qələbənin 71 illiyi münasibətilə rəsmi qəbul təşkil edilib. Azərbaycan Rəspublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mərasimdə iştirak ediblər.



Mayın 10-u müasir müstəqil Azərbaycanın memarı və qurucusu, görkəmli dövlət xadimi, xalqımızın dahi oğlu və ümummilli lideri Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü günüdür. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva, ailə üzvləri, Ulu Öndərin doğmaları xalqımızın xilaskar oğlunun doğum günündə onun məzarını ziyarət etmək üçün Fəxri xiyabana gəldilər.

Mayın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva Zığ-Heydər Əliyev Beynəlxalq Aeroportu magistral avtomobil yolunun 29-30-cu kilometrliyində salınan yaşıllıq sahəsində ulu öndər Heydər Əliyevin doğum gününə həsr olunmuş ağacəkmə kampaniyasında iştirak ediblər.

Mayın 16-da Avstriya Respublikasına işgüzar səfərə gələn Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa İttifaqının xarici əlaqələr və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Federika Moqerini ilə görüşüb.

Mayın 16-da Avstriya Respublikasına işgüzar səfəri çərçivəsində ABŞ-ın dövlət katibi Con Kerri ilə görüşüb.

Mayın 16-da Vyanada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Ermənistan Respublikasının Prezidenti Serj Sarkisyanın, ABŞ-ın dövlət katibi Con Kerrinin, Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrovun, Fransa Respublikasının Avropa məsələləri üzrə dövlət katibi Harlem Desirin, ATƏT-in Minsk qrupunun həmsədrlərinin, ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsi Anji Kaspşikin iştirakı ilə görüş keçirilib.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 18-də Rusiya Federasiyası Baş nazirinin müavini Dmitri Raqozinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

**AZƏRTAC**

## I RÜBÜN YEKUNLARI MÜZAKİRƏ EDİLMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin birinci rübünün yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası ilə əlaqədar Siyəzən rayonunda 2016-cı ilin birinci rübündə görülmüş işlər və qarşıda duran vəzifələrlə bağlı yığıncaq keçirilmişdir.

Yığıncaqda qeyd edilmişdir ki, 2016-cı ilin birinci rübü ölkəmiz, eləcə də rayonumuz üçün uğurlu olmuşdur. İqtisadiyyatda dinamik inkişaf təmin edilmiş, dövlət başçısının qarşıya qoyduğu vəzifələr layiqincə yerinə yetirilmişdir.

Tədbirdə Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı cənab Asif Hüseynov 2016-cı ilin birinci rübünün yekunları barədə ətraflı məruzə etmişdir. Natiq bildirmişdir ki, 2016-cı ilin birinci rübündə Siyəzən rayonu üzrə ümumi məhsul buraxılışı faktiki qiymətlərlə 20 milyon 604.0 min manat olmaqla əvvəlki ilin eyni dövrü ilə müqayisədə 18,2 faiz artmışdır. Əhalinin pul gəlirləri əvvəlki ilin eyni dövrü ilə müqayisədə 2,5 faiz artaraq 24,6 milyon manata, adambaşına düşən məbləğ isə 2,3 faiz artaraq 6073,0 manata çatmışdır.

Natiq rayonda iqtisadi yüksəlişin təmin edilməsi istiqamətində görülən işləri hərtərəfli təhlil etmiş, tikinti-abadlıq, yenidənqurma məsələlərinə də toxunmuş, ayrı-ayrı idarə, müəssisə və təşkilatların qarşısında duran vəzifələrdən bəhs etmişdir.

Yığıncağda məruzə ətrafında müzakirələrdə idarə, müəssisə rəhbərlərinin çıxışları dinlənilmişdir.

Tədbirin sonunda yekun sözlə çıxış edən Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı Asif Hüseynov əldə edilmiş uğurlarla yanaşı, yol verilmiş müəyyən nöqsanları qeyd etmişdir. O, hər bir təşkilatı fəaliyyətlərində prioritet olan yeni nailiyyətlərin əldə olunması istiqamətində çalışmalarını tapşırmışdır.

Sonda müzakirə edilən məsələ ilə əlaqədar qərar qəbul olunmuşdur.

**«ÇIRAQ»**

## QƏLƏBƏ BİZİMLƏ OLACAQDIR

Ürəkdən arzuladığım və yolunu səbrsizliklə məhz həmin gün gözlədiyim hadisə nəhayət, baş verdi.

Məlum olduğu kimi, aprel ayının 2-si Siyəzən rayonunun yenidən bərpa olunduğu gündür. Eyni zamanda, həmin gün bilirsiniz ki, həm də Kəlbəcərin işğalı günüdür. Faktların təsadüfən üst-üstə düşməsi bir siyəzənli olaraq hər birimizdə acı təəssüf doğururdu. Ona görə, məhz aprel ayının 2-sində erməninin qəddinin əyilən gününü görmək bizim üçün xüsusilə xoş oldu.

Bəli, cəbhədə əldə etdiyimiz uğurlar illərdən bəri məruz qaldığımız ağrılara sanki bir məlhəm oldu. Cəbhə bölgəsində baş verən son hadisələr ölkəmizin regionda və dünyada güclü orduya malik olduğunu nümayiş etdirdi. Aprel ayının 2-si uzun illərdən bəri gözlədiyimiz qələbə sorağının ilk müjdələrini eşitməyə başladıq. Bu, hələ başlanğıcdır. Lakin başlıcası, qısamüddətə davam edən döyüşlər Azərbaycanın özünə inamını qaytardı. Sonrakı danışıqlarda Azərbaycanı diktə edəcək tərəfə çevirdi. Dünya, ən əsası isə mənfur düşmənimiz Azərbaycanın nəyə qadir olduğunu gördü.

23 ildir ki, bu tarixi günü gözləyirdik. Ali Baş Komandan möhtərəm cənab İlham Əliyevin cəbhədə əldə etdiyimiz mühüm tarixi qələbə barədə müjdəsi xalqımızın inamını özünə qaytardı. Azərbaycan əsgərinin şücaəti ilə erməninin yanlış gələcəyə, guya qələbəsi barədə arxayınçılığına son qoyuldu. Qısa müddətli qarşıdurma Azərbaycanın necə böyük qüdrətə malik olduğunu dünyaya, əlbəttə, ilk növbədə Ermənistana göstərdi.

Ən başlıcası bilirsinizmi nə oldu? Bu, dünyaya, ələlxüsus Ermənistana və bütün ermənilərə Azərbaycan xalqının yekdil olması barədə mesajı oldu. Xalqın bir nəfər kimi öz dövlətinə, Ali Baş Komandanına inamı nümayiş olundu. Bu, çox mühüm faktordur. Xalqımız itkilərinin olmasından depressiyaya düşmədi, əksinə, ruhən daha mübariz oldu.

İndi heç kimin şübhəsi yoxdur ki, böyük qələbə bizimlə olacaqdır. Sülh yolu ilə olarsa, yaxşı, olmazsa, deməli müharibə yolu ilə olacaqdır.

Bu yolda şəhidlərimiz oldu. Allah hamısına rəhmət eləsin. Müharibə bunsuz olmur. Son qələbə isə hələ qarşıdadır. Artıq bunun baş verəcəyinə heç kimin şübhəsi qalmadı. Xalqımız indi doğrudan da əminliklə inandı ki, «Qarabağ şikəstəsi»nin Şuşada səslənəcəyi gün heç də uzaqda deyil.

**İ. İLYASOV.**

# ŞURA İCLASINDA

Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı yanında Şura iclası keçirilmişdir. İclası Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı Asif Hüseynov açmışdır.

Aşağıdakı məsələlər dinlənilib müzakirə edilmişdir: «Siyəzən rayonunun ümumtəhsil məktəblərində uşaqların təhsil almaq hüquqlarının həyata keçirilməsi və təlim-tərbiyə işinin təşkili vəziyyəti haqqında.» və «Rayon İcra Hakimiyyəti başçısının İƏD üzrə nümayəndəliklərində Yerli İcra Hakimiyyətləri haqqında əsasnamənin 5.1.4, 5.1.6 və 5.1.8-ci bəndlərinin icra vəziyyəti.»

Müzakirə olunan I məsələ ilə əlaqədar Siyəzən Rayonu İcra Hakimiyyəti başçısının müavini-İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Təhminə Bəxtiyarova məruzə etmişdir. Natiq öz çıxışında rayonumuzda təhsil sahəsindəki vəziyyət barədə bəhs etmişdir. Bildirmişdir ki, əksər məktəb binalarının müasir tələblərə cavab vermələri məktəb kollektivlərinin üzərinə böyük məsuliyyət qoyur, nümunəvi çalışmaları üçün stimul yaradır. Bu mənada bəzi məktəb kollektivlərinin uğurları da ayrıca qeyd olundu.

Məruzəçi orta məktəbi bitirmiş məzunlarımızın ali məktəblərə qəbul sahəsində əldə etdiyi nailiyyətlərinin məktəblər üzrə göstəricilərini də sadaladı. Daha sonra bu sahədə mövcud nöqsan və çatışmazlıqlardan, həllini gözləyən problemlərdən də danışdı.

Məsələ ətrafında ciddi müzakirələr getdi.

Sonda Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı cənab Asif Hüseynov mövcud nöqsan və çatışmazlıqları konkret faktlarla diqqətə çatdırdı. Eyni zamanda, məsələnin yenidən diqqət mərkəzində saxlanılması, daha dolğun məlumatların toplanılması, ən qısa bir zamanda təsirli tədbirlərin görülməsi barədə də müvafiq tapşırıqlarını verdi.

II məsələ barədə Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri Xaqani Bəşirov məruzə etdi. Məsələ ətrafında müzakirələrdə İƏD üzrə nümayəndələr çıxış edərək dövlətdən hərtərəfli köməklik gördüklərindən, vətəndaşlara layiqincə xidmət edəcəklərindən söz açdılar.

Müzakirə edilən hər iki məsələ barədə cənab başçı yekun sözlə çıxış etmiş, müvafiq tapşırıq və tövsiyələrini vermişdir.

Sonda hər iki məsələ ilə bağlı qərarlar qəbul olunmuşdur.

«ÇIRAQ»

# SƏYYAR QƏBUL KEÇİRİLMİŞDİR

13 may tarixində Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı cənab Asif Hüseynovun Zarat kənd sakinləri ilə növbəti səyyar qəbulu olmuşdur. Qəbulda operativliyin təmin olunması məqsədilə rayonun idarə, müəssisə rəhbərləri də iştirak edirdi.

Cənab başçı sakinləri narahat edən problemləri öz dilindən eşitmək məqsədilə onlara müraciət etdi. Yaşayış səviyyəsi, məşğulluq məsələlərini öyrəndi. Diqqəti çəkən mühüm məqam görüşə toplaşmış vətəndaşların demək olar ki, ciddi bir problemlə qarşılaşmadıqları oldu. Bu isə, yəqin ki, bundan əvvəl keçirilmiş səyyar qəbulların səmərəliliyi ilə bağlıdır. Yeganə xahişləri magistral yoldan keçən məktəbli uşaqların rahat hərəkətlərinin təmin olunması idi. Əlbəttə, problem barədə aidiyyəti orqanlar qarşısında məsələ qaldırılacağı bildirildi. Görüş beləcə, xoş ovqatla başa çatdı.

Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı Asif Hüseynov görüşdən sonra kəndin küçələrini gəzmiş, vəziyyətlə yerində tanış olmuşdur.

«ÇIRAQ»

# YOL ABADLAŞDIRILIR



Rayon sakinlərinin daha çox Gənclik qəsəbəsi kimi tanıdığı H. Talıbov küçəsindən ta Samur-Abşeron su kanalının ərazisinidək uzanan yolda abadlıq işləri görülür. Yoldan həm piyada, həm də avtomobil yolu kimi istifadə edildiyindən son vaxtlar asfalt qatı korlanmış, kələ-kötür vəziyyətə düşmüşdü. Qəsəbə sakinlərinin xahişlərinə diqqətlə yanaşan rayon rəhbərliyi bu məsələnin müsbət həlli üçün əlaqədar təşkilatlara müvafiq tapşırıqlar verdi. Artıq ərazidə işlərin sürəti günbəgün artamqdadır.

Qısa müddət ərzində yolun kənarlarında təmizləmə işləri aparılıb. Ərazidə səki çəkilişi, tamet döşənməsi işləri görülür. Yaxın günlərdə yola asfalt veriləcəkdir.

«ÇIRAQ»

# YAŞILLIQLAR SALINIR



Yaşlı nəsil yaxşı xatırlayır: böyük öndərimiz Heydər Əliyevin hakimiyyətdə olduğu bütün dövrlərdə ölkəmizdə ətraf mühitin qorunması ilə bağlı ekoloji məsələlər daim diqqət mərkəzində olmuşdur. Salınmış yeni meşələr, gözəl park və xiyabanlar, yaşıllıqlar bizlərə həmin illərin əvəzsiz yadigarıdır.

Ümummilli liderimiz Heydər Əliyevin doğum günündə ölkə ərazisində ağacəkmə aksiyalarının keçirilməsi artıq ənənə şəklini almışdır. Xalqımız yeni yaşıllıq sahələrinin salınmasında, ekoloji tarazlığın bərpa edilməsində fəal iştirakı ilə böyük öndərin tövsiyələrinə sadiq qaldığını mütəşəkkil şəkildə bir daha nümayiş etdirir.

Mayın 10-da, ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü günündə də bu ənənə böyük həvəslə davam etdirildi.

Paytaxt Bakıda, respublikamızın bütün şəhər və rayonlarında olduğu kimi, rayonumuzda da ağacəkmə kompaniyası keçirilmişdir. Həmin gün Ulu Öndərin anadan olmasının 93 illiyi münasibətilə Siyəzən Rayon İcra hakimiyyətinin təşkilatçılığı ilə növbəti ağacəkmə aksiyası keçirilib. Belə ki, rayonun idarə, müəssisə və təşkilatlarının, ictimaiyyətin nümayəndələrinin iştirakı ilə genişmiqyaslı iməcilikdə şəhərin bir neçə yerində ağaclar əkilib, yaşıllaşdırma tədbirləri aparılmışdır.

«ÇIRAQ»

# İŞGÜZAR FORUM

Azərbaycan Dövlət Əmlak Məsələləri Komitəsi əməkdaşlarının iştirakı ilə «Azərbaycanda Torpaqların Elektron Kadastr Uçotu İnformasiya Sisteminin Yaradılması» mövzusunda işgüzar Forum keçirilmişdir.

Tədbirdə Rayon İcra Hakimiyyəti başçısının inzibati ərazi dairələri üzrə nümayəndələri, bələdiyyə sədrləri, eləcə də sahibkarlıq fəaliyyəti ilə məşğul olan rayon sakinləri müzakirə olunan məsələ barədə dolğun məlumatlar ala bildilər.

Forumu Siyəzən Rayon İcra Hakimiyyəti başçısının köməkçisi Akif Xıdırov açmışdır. O, müzakirə ediləcək mövzunu elan etdikdən sonra sözü Azərbaycan Dövlət Əmlak Məsələləri Komitəsinin məsul işçisi Ədalət Salmanova verdi.

Ə. Salmanov məlumat verdi ki, dövlət başçısı tərəfindən müasir Kadastr Uçotu Xəritələrinin tərtib olunması tapşırılmışdır. Bu işlərin həyata keçirilməsi üçün 10 pilot rayon seçilmişdir ki, onlardan biri də Siyəzən rayonudur. Qeyd etdi ki, hazırda respublika üzrə torpaq istifadəçilərinin sayı 1 milyonu ötmüşdür. Dəqiqləşdirmə aparılması məqsədilə mövcud problemlər müəyyən olunmuşdur. Məlumatların toplanılaraq ASAN xidmətə verilməsi nəzərdə tutulmuşdur.

Müəyyən olunmuşdur ki, torpaq sahələrinin verilməsindəki faktiki, real vəziyyətlə hüquqi vəziyyət arasında fərqlər əmələ gəlmişdir. Nöqsanların ləğv olunması bizim işimizin əsasını təşkil edəcəkdir. Ona görə, bu məsələdə sizin üzərinizə böyük məsuliyyət düşür. Prosesin yerinə yetirilməsi zamanı vətəndaşların mənafeyinə toxunulmasına qətiyyən yol vermək olmaz. Bilməliyik ki, aparılacaq islahatlar vətəndaşların mənafeyi naminə, müdafiəsi üçün aparılır. Əminik ki, bu, əhalidə narazılıq yox, razılıq yaradacıqdır.

Sonra məsələ ilə bağlı iştirakçıları maraqlandıran suallara cavablar verildi. Müzakirələrdə Siyəzən şəhər bələdiyyəsinin sədri Azər Babayev, Dağ Quşçu bələdiyyəsinin sədri Nurlan Bağırov, Məşrif bələdiyyəsinin sədri Qoşqar Əsədov çıxış edərək onları narahat edən suallarla müraciət etdilər.

«ÇIRAQ»

# Siyəzən Rayon İcra Hakimiyyəti başçısı aparatında vətəndaşların qəbulu CƏDVƏLİ

| Sıra № | Vəzifəsi | Soyadı, adı və atasının adı | Qəbul günü | Qəbul saatı |
|---|---|---|---|---|
| 1 | Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı | Hüseynov Asif Həbib oğlu | çərşənbə axşamı | saat 11:00-dan başlayır |
| 2 | Başçının müavini-Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri | Əliyev Zəfər Nüsrət oğlu | bazar ertəsi | saat 14:00-dan başlayır |
| 3 | Başçının müavini-İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri | Bəxtiyarova Təhminə Vahid qızı | çərşənbə | saat 14:00-dan başlayır |
| 4 | Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri | Bəşirov Xaqani Paşa oğlu | cümə | saat 11:00-dan başlayır |
| 5 | Hüquq şöbəsinin müdiri | Əliyev Şəmşad Məcid oğlu | şənbə | saat 11:00-dan başlayır |
| 6 | Memarlıq və tikinti şöbəsinin müdiri-baş memar | Novruzov Səxavət Mehdi oğlu | bazar ertəsi | saat 10:00-dan başlayır |
| 7 | Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri | Mursaquliyev Feyyaz Lətifulla oğlu | cümə axşamı | saat 10:00-dan başlayır |
| 8 | İnformasiya təminatı və təhlil sektorunun müdiri | Mürvətov Rəhman Nəcməddin oğlu | çərşənbə | saat 10:00-dan başlayır |

**Qeyd:** 1. Milli qəhrəman və onların ailə üzvləri, şəhid ailəsi üzvləri, Qarabağ əlilləri və digər imtiyazlı şəxslər növbədənkənar qəbul olunurlar.
2. Rayon İcra Hakimiyyəti başçısının qəbulu günləri bayram günlərinə düşdükdə qəbul növbəti iş gününə keçirilir.
3. Vətəndaşların qəbulu ilə əlaqədar əlaqə telefonu: (23) 304-00-10

# Siyəzən Rayon İcra Hakimiyyəti başçısının 2016-cı ilin may ayında keçirəcəyi səyyar qəbulların QRAFİKİ

| Sıra №-si | Qəbulun keçiriləcəyi yer | Tarix | Saat |
|---|---|---|---|
| 1 | Qaragöz kəndi, açıq havada | 06.05.2016 | 15:00 |
| 2 | Zarat kəndi, kənd tam orta məktəbin binası | 13.05.2016 | 15:00 |
| 3 | Nardaran kəndi, açıq havada | 20.05.2016 | 15:00 |
| 4 | Künövşə kəndi, açıq havada | 27.05.2016 | 15:00 |

# Dövlət orqanlarının yerli qurumlarında vətəndaşların qəbulu CƏDVƏLİ

| S. №-si | Vəzifəsi | Soyadı, adı və atasının adı | Qəbul günü və saatı |
|---|---|---|---|
| 1. | Siyəzən Rayon Gənclər və İdman İdarəsinin rəisi | Məmmədov Nadir Əmrulla oğlu | Cümə günü, saat 10:00-dan başlayır |
| 2. | Siyəzən Rayon Təhsil Şöbəsinin müdiri | Hacıyev Rəfail Məmmədrıza oğlu | Bazar ertəsi günü, saat 10:00-dan başlayır |
| 3. | Siyəzən Telekommunikasiya Qovşağının rəisi | Kəbirov Rafiq Kəbir oğlu | Hər iş günü, saat 15:00-dan başlayır |
| 4. | Siyəzən Regional Müalicə Diaqnostika Mərkəzinin baş həkimi | Hümbətov Dadaş Ümüd oğlu | Hər iş günü, saat 11:00-dan başlayır |
| 5. | Siyəzən rayon Mərkəzi Poliklinikanın baş həkimi | Quliyev Əhməd Əli oğlu | Hər iş günü, saat 10:00-dan başlayır |
| 6. | Siyəzən rayonu Gigiyena və Epidemiologiya Mərkəzinin direktoru | Yaqubov Mehman Nəcməddin oğlu | Bazar ertəsi günü, saat 10:00-dan başlayır |
| 7. | Xaçmaz Regional Qaz İstismar İdarəsinin Siyəzən Xidmət Sahəsi üzrə rəis müavini | Mirzəyev Nizami Rza oğlu | Çərşənbə axşamı və cümə axşamı günü, saat 15:00-dan başlayır |
| 8. | Sukanal İdarəsinin rəisi | Qurbanov Faiq Hacıqulu oğlu | Çərşənbə axşamı və cümə günü, saat 15:00-dan başlayır |
| 9. | Dövlət Sosial Müdafiəsi Fondunun Siyəzən rayon şöbəsinin müdir əvəzi | Məmmədov Ramil Vahid oğlu | Cümə günü saat 16:00-dan başlayır |
| 10. | Siyəzən rayon Əhalinin sosial müdafiəsi mərkəzinin direktoru | Yusifova Kamilə Şəmsəddin qızı | Çərşənbə axşamı və cümə axşamı günü, saat 10:00-dan başlayır |
| 11. | Siyəzən Meşə Mühafizəsi və Bərpası Müəssisəsinin direktor əvəzi | Əlizadə Alim Vidadi oğlu | I, III, IV günlər, saat 11:00-dan başlayır |
| 12. | Siyəzən rayon Baytarlıq İdarəsinin rəisi | Qasımov Seyfulla Eynulla oğlu | Çərşənbə günü, saat 10:30-dan başlayır |
| 13. | Siyəzən rayon Məşğulluq Mərkəzinin direktoru | Heydərov Etibar Murad oğlu | Çərşənbə günü, saat 10:00-dan başlayır |
| 14. | Siyəzən rayonu üzrə Maliyyə Şöbəsinin rəisi | Nemətov Samir Sabir oğlu | Cümə günü, saat 10:00-dan başlayır |
| 15. | «Azərpoçt» MMC-nin Siyəzən Poçt Filialının rəisi | Əliyev Akif Hacı oğlu | Bazar ertəsi və cümə axşamı günü, saat 14:00-dan başlayır |
| 16. | Siyəzən Rayon Mədəniyyət və Turizm şöbəsinin müdiri | Qədirli Zəminə Əlikram qızı | Cümə günü, saat 10:00-dan başlayır |

**Qeyd:** 1. Milli qəhrəman və onların ailə üzvləri, şəhid ailəsi üzvləri, Qarabağ əlilləri və digər imtiyazlı şəxslər növbədənkənar qəbul olunurlar.

# MÜSTƏQİL AZƏRBAYCAN HEYDƏR ƏLİYEVİN ŞAH ƏSƏRİDİR

Azərbaycan Şərqin və Qərbin qovuşduğu unikal coğrafi məkanda yerləşən, müxtəlif mədəniyyətlərin bir araya gəldiyi nadir ölkələrdəndir. Sovet imperiyasının dağılmasından sonra müstəqillik qazanan xalqımız çox ağır mirasa sahib olmuşdur. Həmin dövrün canlı şahidləri çox yaxşı xatırlayırlar. Azərbaycan sabaha ümidi olmayan bir ölkəyə çevrilmişdi. Məhz bu çətin dövrdə liderliyi üzərinə götürən Ulu Öndər Heydər Əliyevin, sözün əsl mənasında, titanik fəaliyyəti nəticəsində Azərbaycan uğurlu intibah yoluna çıxdı. Onun böyük müdrikliklə yaratdığı milli dövlətçiliyin müasir modeli öz unikallığı ilə fərqlənməklə yanaşı, Azərbaycanın inkişaf istiqamətlərini də özündə birləşdirdi. Heydər Əliyev idarəçiliynin, onun liderlik keyfiyyətlərinin möhtəşəm nəticəsi sübut etdi ki, hər hansı dövlətin inkişafı, dünya birliyində öz layiqli yerini tuta bilməsini şərtləndirən əsas amil onun ərazisinin böyüklüyündən deyil, xalqın seçdiyi liderin fərdi keyfiyyətlərindən asılıdır.



Hər il xalqımız may ayının 10-nu Azərbaycanlı olması ilə fəxr edən böyük şəxsiyyətin, dahi insanın doğum gününü el bayramı kimi qeyd edir. Hamı öz imkanı daxilində bu böyük şəxsiyyətə öz məhəbbət, ehtiram və hörmətini ifadə etməyə çalışır. Böyük iftixar və qürur hissi ilə qeyd etməyi özümə borc bilirəm ki, mən də XX əsrin 70-ci illərinin 10 minlərlə gənclərindən biri kimi Heydər Əliyev məktəbindən, dühasından bəhrələnmiş, tərbiyə almış, həyatda öz yolumu tapmışam.

Artıq 13 ildir ki, XX əsrin ən nəhəng siyasətçilərindən biri olan Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev cismən canından artıq sevdiyi xalqından ayrılmışdır. Bu dahi insan əlçatmaz zirvə kimi bizdən uzaqlaşdıqca onun böyüklüyünü, fenomen şəxsiyyət olmasını daha aydın dərk edirik.

Əslində bizim kimi sadə insanların Heydər Əliyev kimi dahilərə qiymət verməyə nə siyasi savadımız, nə də mənəvi gücümüz imkan vermir. Ona ancaq özü kimi dahilər, görkəmli siyasətçilər, dövlət xadimləri qiymət verə bilərlər.

Bu məqamda H. Əliyevin dəfn mərasimində iştirak edən Rusiyanın Prezidenti V. Putinin sözlərini xatırlamaq yerinə düşərdi.

O, obrazlı şəkildə demişdir: «Qoy Azərbaycan xalqı məndən inciməsin. Azərbaycan Heydər Əliyev üçün çox kiçik ölkədir. Heydər Əliyev Azərbaycandan qat-qat böyük olan dövlətləri idarə etməyə layiq nadir şəxsiyyətlərdəndir.»

Odur ki, Heydər Əliyevin həyat və fəaliyyəti haqqında danışarkən biz sadəcə qəlbimizdə olan sevinc duyğularımızı,fikirlərimizi bir-birimizlə bölüşə bilərik. Buna görə də mən Ulu Öndərin həyatının iştirakçısı olduğum bəzi məqamları üzərində qısa dayanmaq istərdim.

Yaxşı xatırlayıram... 1982-ci ildə Dəvəçi (indiki Şabran) broyler fabrikinin kollektivi ilə görüşə gələn Heydər Əliyev fabriklə tanış olduqdan sonra rayon ictimaiyyəti ilə görüşdü. Dəvəçi ilk dəfə idi ki, bu səviyyədə mötəbər qonağı qarşılayırdı. Raykomun şöbə müdiri kimi hadisələrin içində olduğum üçün hər şeyi yaxşı xatırlayıram. Məsuliyyət və həyacandan, gərginlikdən keçirilən tədbirə məsul olan şəxslərdən biri kimi özümüzə yer tapa bilmirdik. Respublikanın rəhbəri kimi onun proqram xarakterli çıxış və tövsiyələri ilə gündəlik işimizi qurmağımıza baxmayaraq ilk dəfə idi ki, biz onu yaxından görür, canlı dinləyirdik. 40 dərəcə istidə, kondinseoneri olmayan kinoteatrda iki saatdan artıq çəkən məruzəsi ilə bu dahi insan bizi elə ovsunlamışdı ki, özümüzdə hər şeyə qadir olan bir qüvvənin olduğunu duyurduq.

1983-cü ildə artıq Heydər Əliyev nəhəng Sovetlər İttifaqının rəhbərlərindən biri kimi Dəvəçi rayonuna gəlmişdi. Rayon rəhbərliyinin tapşırığına əsasən, mənim də daxil olduğum bir neçə məsul işçi Siyəzən şəhərində Heydər Əliyevin qarşılanıb yola salınmasına cavabdehlik daşıyırdıq. O vaxtdan 30 ildən artıq vaxt keçməsinə baxmayaraq həmin tədbirin bütün detallarını xatırlayıram. Bütün Siyəzən ayaq üstə idi. Mədəniyyət sarayının qarşısı, ətrafı insanla dolmuşdu. Saat 11 radələrində 2 hökumət maşını Sarayın qarşısında dayandı. Birinci maşında Heydər Əliyev Azərbaycan KP MK-nın I katibi K. Bağırovla, ikinci maşında isə onların ailə üzvləri, o cümlədən indiki prezidentimiz gənc İlham Əliyev əyləşmişdi. Ailə üzvləri ilə birlikdə maşından düşən bu əfsanəvi şəxsiyyət əhali ilə çox səmimi, mehriban görüşdü. Bu görüş çox təbii alındı. Mən bu görüşdə xalqın, sadə insanların, hər şeyi öz adı ilə çağırmağı xoşlayan 70-ci illərin əli qabarlı Siyəzən neftçilərinin gözlərindəki sevinc yaşlarını xatırlatmaq istəyirəm. Xalqın öz böyük oğlu ilə görüşmək üçün necə böyük sevgi və coşqu ilə səy göstərdiyi o anlar ömürlük mənim yaddaşıma həkk olunub... Azərbaycan SSR Ali Sovetinin deputatı, gənc neftçi Ramiz Babayev həmin anda Heydər Əliyevə gül dəstəsi təqdim etməliydi. Həyəcandan bir anlıq Ramiz özünü itirdi, gül dəstəsini qonağa bir qədər gec təqdim etdi. Bir anlıq onunla Heydər Əliyev arasında boşluq əmələ gəldi. Birdən ikinci cərgədə duran qocaman neftçi Böyük Vətən Müharibəsi iştirakçısı Mayıl kişi irəli çıxaraq «Panfilovçu Bədəlov»-deyərək əlini Heydər Əliyevə uzatdı. Aradan gərginlik bir anda yox oldu. Heydər Əliyev onunla çox isti görüşdü, Ramiz də özünə gələrək gül dəstəsini ona təqdim etdi.

Siyəzən broyler quşçuluq fabrikinin inşası ilə bağlı bir məqamı da xatırlamaq istərdim. Onda mən RİK-nin katibi işləyirdim. Fabrikin tikintisi ilə bağlı torpaqayırma sənədlərini almaq üçün Layihə İnstitutunun əməkdaşları İcraiyyə Komitəsinə gəlmişdilər. Nə üçünsə sənəd tərəfimizdən bir qədər gec hazırlandı. Söhbət əsnasında onların rəhbəri dedi ki, fabrikin burada tikilməsi ilə bağlı müəyyən söhbətlər gedir. Qubalılar onun Qubada, Naxçıvanlılar isə Naxçıvanda tikilməsinə çalışırdılar. Lakin H. Əliyevin tapşırığına əsasən fabrik Siyəzəndə tikilməlidir.

Fabrikin vəzifəsi Bakı şəhərini quş əti ilə təmin etmək idi. Siyəzənin infrastrukturu isə ən əlverişli idi. Bütün şimal bölgəsində əhalinin həyat səviyyəsinin yüksəlməsində mühüm rol oynayan, Avropanın ən böyük broyler quşçuluq fabriki məhz Heydər Əliyevin göstərişi ilə Siyəzəndə inşa edildi.

SSRİ rəhbərliyinin müsəlman respublikalarına ögey münasibətinə baxmayaraq Respublikanın rəhbəri seçilən Heydər Əliyev düzgün, inamlı və cəsarətli yüksək təşkilatçılıq fəaliyyəti nəticəsində ciddi maneələri məharətlə aradan qaldırmış, respublikanın bütün sahələrində coşqun inkişaf dövrü başlanmışdır. Bu gün mübaliğəsiz demək olar ki, Azərbaycan 1969-1982-ci illərdə geridə qalmış aqrar diyardan qabaqcıl sənaye ölkəsinə çevrilmiş, elm, mədəniyyət, təhsil sahələrinə, milli-mənəvi dəyərlərin qorunub inkişaf etdirilməsinə xüsusi diqqət yetirilmişdir.

Stalin hakimiyyətindən sonra SSRİ hökumətinin qeyri-slavyan xalqlarının nümayəndələri üçün qoyduğu maneələrə baxmayaraq Heydər Əliyevin təşkilatçılıq məharəti. idarəetmə qabiliyyəti, dərin zəkası və müdrik rəhbərliyi yüksək qiymətləndirilərək ona iki dəfə Sosialist Əməyi Qəhrəmanı kimi yüksək ad verilmişdir. 1982-ci ildə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini, Siyasi Büro üzvü seçilmiş Heydər Əliyev 1987-ci ilə kimi bu vəzifədə fədakarlıqla çalışmış, qısa müddətdə nəhəng sovetlər ölkəsində böyük nüfuza, hörmət və məhəbbətə layiq bir rəhbər kimi şöhrətlənmiş, ümumxalq məhəbbəti qazanmışdır. Onun səmərəli fəaliyyəti, prinsipial mövqeyi, çoxmillətli sovetlər ittifaqında sürətlə artan nüfuzu Qorbaçov komandasının mənafelərinə uyğun gəlmədiyinə görə 1987-ci ilin oktyabr ayından bu böyük insan ittifaqın ali rəhbərliyindən uzaqlaşdırıldı.

Heydər Əliyevin sovet dövründəki çoxcəhətli, titanik dövlətçilik fəaliyyətinin təhlili göstərir ki, Azərbaycanı sevən, azərbaycanlı olması ilə fəxr edən bu nadir şəxsiyyətin həm iqtisadi, həm siyasi, həm də mənəviyyat sahəsindəki fəaliyyəti müqəddəs bir ideya-Azərbaycançılıq ideyası ətrafında birləşir. Azərbaycanı inkişaf etmiş bir ölkəyə çevirmək, minlərlə gəncin keçmiş ittifaqın ən nüfuzlu ali məktəblərində oxuyub yüksək ixtisaslı, intellektli insan kimi vətənə dönməsi, 1978-ci ildə qəbul edilmiş Azərbaycan SSR-nin Konstitusiyasına Azərbaycan dilinin dövlət dili olması maddəsinin salınması, müstəqil Azərbaycan ordusunun formalaşmasında əvəzsiz xidmətləri olan C. Naxçıvanski adına hərbi məktəbin yaradılması, totalitar sovet rejiminin «millətçi» damğası vurduğu N. Nərimanovun Bakının ən uca yerində ucaldılmış rus Kirovun heykəli ilə rəqabət apara bilən əzəmətli heykəlinin ucaldılması, xalqın on nəfərə kimi sayılıb-seçilən ziyalısı, yazıçı və şairi, mədəniyyət xadiminin İttifaqın ən yüksək fəxri adına-Sosialist Əməyi Qəhrəmanı adına layiq görülməklə dünyaya tanıdılması Azərbaycançılıq ideyalarına xidmət edirdi. Bütün bu məsələlərin həlli bilmədiyimiz neçə-neçə maneələrin, əngəllərin Heydər Əliyev qətiyyəti, Heydər Əliyev zəkası ilə aradan qaldırılması hesabına əmələ gəlirdi.

Böyük şəxsiyyət, müdrik rəhbər Heydər Əliyevin mənalı və zəngin siyasi həyatı çağdaş dövrün ən yeni Azərbaycan tarixində xüsusi bir mərhələdir.

Bu gün biz mübaliğəsiz, inamla deyə bilərik ki, Müstəqil Azərbaycan Respublikası onun qurucusu, baş memarı olan ümummilli lider Heydər Əliyevin şah əsəridir.

Ən ağrılı vaxtlarda liderlik missiyasını üzərinə götürüb xalqını fəlakətdən qurtaran bu dahi insan dünya xəritəsində kiçik bir dövlət olan Azərbaycanın gələcək inkişafında siyasi varis məsələsinə xüsusi önəm verirdi.

2003-cü ildə xalqa ünvanladığı müraciətdə inam və qətiyyətlə deyirdi: «Üzümü sizə-həmvətənlərimə tutaraq mənim siyasi varisim İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsdir. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm.

Ötən müddət göstərdi ki, kadr işində zərgər dəqiqliyini sevən bu böyük insanın, Ulu Öndərin peyğəmbərcəsinə söylədiyi fikirlər Azərbaycan cəmiyyətində artıq neçə illərdir ki, öz real təsdiqini tapmışdır. Bu gün inamla demək olar ki, İlham Əliyev fenomeni Heydər Əliyev epoxasının kamillik zirvəsidir. Yaşa dolduqca müdrikləşən, müstəqilliyimizin ən etibarlı təminatçısı olan Heydər Əliyev siyasi kursunu uğurla davam etdirən, ideyalarını yaşadan və həyata keçirən hörmətli Prezidentimiz İlham Əliyev ziddiyyətlərlə, ikili standartlarla zəngin olan dünyamızda Azərbaycanı layiqincə idarə edir. Artıq tədricən Bakı dünyanın siyasi, dini və mədəni mərkəzlərindən birinə çevrilir. Bu Heydər Əliyev ideyalarının uğurla həyata keçməsi deməkdir. Prezident İlham Əliyevin sözləri ilə desək: "Azərbaycanda bütün işlərin təməlində Heydər Əliyev amili, Heydər Əliyev siyasəti dayanır. Biz bu siyasətə sadiqiq. Öz milli Liderimizin vəsiyyətinə sadiqik.»

Bütün Azərbaycan xalqı kimi biz siyəzənlilər də Heydər Əliyev siyasətinə sadiqik. Onun layiqli varisi Prezident İlham Əliyevin daxili və xarici siyasətini yekdilliklə dəstəkləyir və ürəklə deyirik: Heydər Əliyevin şah əsəri olan Müstəqil Azərbaycan etibarlı əllərdədir.

**Rafiq YARIYEV,**
**3 saylı tam orta məktəbin direktoru.**

# NƏSİLLƏRƏ BİR ÖRNƏKDİR

Müasir Azərbaycanın banisi Heydər Əliyev öz xalqına, millətinə təmənnasız xidmətlərinə görə yaddaşlarda həkk olunmuşdur.

Azərbaycanın taleyüklü hadisələrlə dolu otuz ildən artıq bir dövrü Heydər Əliyevin adı ilə bağlıdır.

Ölkəmizdə müstəqil dövlət təsisatlarının yaradılması, demokratik, hüquqi dövlət quruculuğu, suveren Azərbaycanın Konstitusiyasının qəbul edilməsi, vətəndaş cəmiyyətinin formalaşdırılması, milli təhlükəsizliyin təmin olunması və yeni iqtisadi kursun müəyyənləşdirilməsi məhz Heydər Əliyevin müstəsna xidmətləridir.

Böyük şəxsiyyət, dahi insan Heydər Əliyevin ömrünün hər bir günü və dəqiqəsi dövlətinə, millətinə xidmətlə keçib. Onun hakimiyyətə gəlişi, səhiyyəyə dair çıxardığı qərarlar və verdiyi tapşırıqlar Azərbaycan səhiyyəsi üçün çox böyük əhəmiyyət kəsb etmişdir. O dövrlərdə tikilib istifadəyə verilən Elmi-Tədqiqat Kardiologiya İnstitutu, Klinik Tibbi Mərkəzin Toksikologiya şöbəsi, Yanıq Mərkəzləri, Respublika Neyrocərrahiyyə Xəstəxanası kimi vacib profilli xəstəxanalar məhz ümummilli liderin təşəbbüsünün nəticəsidir.

Bütün sahələrdə fenomenal biliklərə malik olan Heydər Əliyev səhiyyənin önəmli və daim aktual sahəsi olan kadr məsələlərinə çox böyük önəm vermişdir. Onun təklif və səyləri nəticəsində Bakıda həkimlərin ümumittifaq yığıncaqları.keçirildi və bu münasibətlə də Sovet İttifaqının görkəmli alimləri paytaxt Bakıya gəlirdilər. O zamanlar heç kimin düşünmədiyi, lakin səhiyyə sektorunda vacib sahə olan ailə həkimlərinin ilk qurultayı da məhz, bütün dünyada ilk dəfə, yenə də bu dahi insanın təşəbbüsü ilə Bakıda keçirilmişdir. 30-dan artıq tələbənin, gənc alimlərin başqa ölkələrə göndərilməsi məsələsi kadr hazırlığına və təkmilləşməsinə hələ o zamanlarda çox böyük təkan vermişdir. Heydər Əliyevin başladığı bütün işlərin arxasında irimiqyaslı layihələr, böyük zəhmət dururdu və o, başladığı bütün işləri başa çatdırırdı.

Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlişi yenə də ölkədə maddi və iqtisadi imkanların məhdud olduğu, ölkənin talan olunduğu və hərci-mərclik vaxtlarında olmuşdur. Hər bir sahədə mövcud problemlər səhiyyə sahəsində də az deyildi. Bununla belə, Heydər Əliyevin xüsusi diqqət və qayğısı sayəsində ölkəmizdə səhiyyənin inkişafı və əhalinin sağlamlığının qorunması sahəsində əhəmiyyətli nailiyyətlər əldə etmək mümkün olmuşdur. Onun bilavasitə rəhbərliyi ilə ölkənin səhiyyə sistemində ardıcıl və məqsədyönlü işlər görüldü, islahatlar aparıldı. Bu işdə ilk növbədə səhiyyənin hüquqi-normativ bazasının təkmilləşdirilməsi və dünya standartları səviyyəsinə qaldırılması daim diqqət mər-kəzində saxlanılırdı. Ümummilli liderin müdrikliyi, uzaqgörənliyi ilə səhiyyədə ən vacib məsələlərdən biri olan yoluxucu xəstəliklərin qarşısının alınması üçün bir çox beynəlxalq qurumlar, müxtəlif fondlar bu işə cəlb edildi və şəxsən özü ilk vakansiya işində iştirak etdi.

Heydər Əliyevin prezidentliyi dövründə səhiyyəmizin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində xeyli işlər görüldü. Bir sıra tibb müəssisələrində təmir-tikinti işləri aparıldı, səhiyyə ocaqları yeni avadanlıq və cihazlarla təchiz edildi. O illərdə bu sahədə ən diqqətəlayiq hadisə olan Azərbaycan Tibb Universitetinin yeni korpusunun istifadəyə verilməsi və müasir dünya standartlarına cavab verən Mərkəzi Klinik Xəstəxananın açılışı isə ümummilli liderin Azərbaycan xalqının sağlamlığına göstərdiyi qayğının ən parlaq təcəssümü olmuşdur.

**Dadaş HÜMBƏTOV,**
**Regional Müalicə Diaqnostika Mərkəzinin baş həkimi.**

# HEYDƏR ƏLİYEV ŞƏXSİYYƏTİ MULTİKULTURAL VƏ TOLERANT DƏYƏRLƏR İŞIĞINDA

Siyəzən Rayon Heydər Əliyev Mərkəzində «Heydər Əliyev şəxsiyyəti multikultural və tolerant dəyərlər işığında.» adlı dəyirmi masa keçirilmişdir. Tədbirdə rayonun idarə, müəssisə və təşkilatlarının nümayəndələri iştirak edirdi.

Mərkəzin direktoru Ramilə Seyidova tədbiri açaraq bildirdi ki, bu günkü tədbirimiz ümummilli lider Heydər Əliyevin 93 illik yubileyinə həsr olunmuş cəmiyyətdə geniş vüsət alan, təbliğ edilən və dövlət siyasətinin prioritet istiqamətlərinin biri kimi müəyyən edilən aktual və əhəmiyyətli bir mövzuya həsr edilib.

Azərbaycan əsrlər boyu özünün multikulturalizm ənənələri ilə region və dünya ölkələrinə nümunə olub. Bu gün biz Multikulturalizmi bir model kimi təqdim edirik, nümunə kimi göstəririk. Azərbaycan Multikulturalizmi dərin köklərə malikdir. Əminliklə deyə bilərik ki, Azərbaycan Multikulturalizminin banisi böyük Azərbaycansevər Heydər Əliyevdir.

Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanda multikulturalizm ənənələrinin qorunması sahəsində həyata keçirilən siyasi fəaliyyət indi Prezident İlham Əliyev tərəfindən böyük inamla davam etdirilir. İlham Əliyev cənablarının 2016-cı ilin Azərbaycanda «Multikulturalizm ili» elan edilməsi ilə bağlı imzaladığı sərəncam bir daha göstərir ki, Azərbaycan bu gün dünyanın dini və irqi çaxnaşmalar müharibələrlə çalxandığı bir dövrdə bərabər hüquqlarla birgə yaşam diyarına çevrilə bilib.

Siyəzən Rayon İcra Hakimiyyətinin İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdirinin müavini-dini qurumlarla işin təşkilatçısı Balabəy Balabəyov bildirdi ki, Azərbaycan milli və dini baxımdan həmişə tolerant bir ölkə olmuşdur. Tarixən dinlərin və mədəniyyətlərin qovşağı olmuş ölkəmiz bu gün də öz missiyasını uğurla yerinə yetirir. Azərbaycan ərazisində məskunlaşmış dini-etnik qruplar burada özlərini nəinki yad hesab etməmiş, hətta yerli əhali ilə qaynayıb qarışmışlar. Prezident İlham Əliyev son 12 ildə tarixi-mədəni irsin, milli-mənəvi dəyərlərin dirçəldilməsi, xüsusən də, dini ziyarətgahların əsaslı təmiri və yenidən qurulmasına xüsusi diqqət ayrılmışdır. Hazırda Azərbaycanda formalaşmış dini tolerant mühitinin qorunub saxlanması və onun daha da möhkəmləndirilməsində görülən işlər nəticəsində respublikamızda rəsmi olaraq 598 dini icma qeydiyyatdan keçmişdir. Bunlardan 577-si islam, 21-i qeyri-islam təmayüllü dini icmadır.

Təhsil Şöbəsi metodkabinetinin müdiri Cəfər Bağırov bildirdi ki, multikulturalizm mərkəzinin işi mədəni, dini, etnik, birlikləri təşviq etmək öyrənmək, tanımaqdan ibarətdir. Azərbaycan multikulturalizmi ölkə daxilində 20-dən çox universitetdə tədris olunur. Slavyan Universitetində Multikulturalizm kafedrası fəaliyyət göstərir.

2 saylı tam orta məktəbin tarix müəllimməsi Səadət Əsədullayeva tarix boyu ölkəmizdə milli azlıqlar, etnik qruplar ayrı-ayrı etiqad inanclara sahib insanların dostluq, qardaşlıq şəraitində yaşadıqlarını bildirdi. Paytaxt Bakı qlobal əhəmiyyətli tədbirlərin keçirildiyi məkandır. BMT-nin Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunun 2016-cı ildə Bakı şəhərində keçirilməsi haqqında qərar qəbul etməsini dünya ölkələrinin Azərbaycandakı multikultural mühitə müsbət münasibətini göstərir.

Tədbirin sonunda «Multikulturalizm ili» adlı videofilm nümayiş olundu.

**Ramilə SEYİDOVA,**
**Heydər Əliyev Mərkəzinin direktoru.**

## DÖYÜŞMƏYƏ HAZIRIQ



Ötən ilin yayında düşmən hücumunu dəf edərkən qəhrəmanlıqla həlak olmuş həmyerlimiz, Dağ Quşçu kənd sakini Ağadadaş Şahkərəmov ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin adından müdafiə naziri, general-polkovnik Zakir Həsənovun əmri ilə "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalla təltif olunmuşdur. Bu münasibətlə Heydər Əliyev Mərkəzində şəhidin valideynləri ilə görüş keçirilmişdir. Görüşdə hüquq-mühafizə orqanlarının rəhbərləri və idarə müəssisə rəhbərləri ilə yanaşı, ictimaiyyət nümayəndələri də iştirak etmişdir.

Tədbiri Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı Asif Hüseynov açmışdır. Cənab başçı aprel ayının əvvəllərində cəbhə bölgəsində qoşunlarımız tərəfindən düşmənə layiqli cavabın verildiyini, Ali Baş Komandanın rəhbərliyi altında qəhrəman Silahlı Qüvvələrmizin cinayətkar erməni qoşunlarına sarsıdıcı zərbə endirdiyini və bununla da gələcək həlledici qələbəmiz üçün güclü zəmin yaradıldığını xüsusi olaraq qeyd etmişdir. O, şəhidin valideynlərinə səbr diləmiş, şəhidin qisasının yerdə qalmayacağını, tezliklə düşmən üzərində qələbə çalacağımızı bildirmişdir.

Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı cənab Asif Hüseynov daha sonra sözü Müdafiə Nazirliyinin nümayəndəsi polkovnik Abdulla Qurbaniyə vermişdir. A. Qurbani çıxışında bu yaxınlarda Azərbaycan Ordusunun bir neçə yüksəkliyi alması ilə hamımızın sevinc içərisində olduğumuzu qeyd etmişdir. Və üzünü şəhid atasına tutaraq: «Siz başınızı dik tutun, şəhidlər ölməz, Vətən bölünməz»,-deyə müraciət etdi. Bilirsinizmi, əsgərlərimizdə ruh yüksəkliyi o qədər artmışdır ki, hətta son nəfəslərində «Vətən sağ olsun» deyirdilər. O, çıxışında şəhid valideynlərinin qürurlu, vüqarlı olmalarından, Ali Baş Komandan İlham Əliyevin bir göstərişi ilə döyüşə atılacaqlarından nümunələr gətirdi.

Və cavabında şəhid atası Şahkərəmov Şahkərəm də iki oğlu ilə birlikdə cənab Prezidentimiz İlham Əliyevin əmri ilə hər an döyüşə getməyi arzuladığını bildirdi. Övladları ilə fəxr duyduqlarını dedilər. Bildirdilər ki, hamımız cənab Prezidentimizin ətrafında sıx birləşməliyik. Ali Baş Komandanın əmri olarsa, bu gün cəbhəyə yollanmaya hazıram. Hətta bu barədə Səfərbərlik Xidməti üzrə rayon şöbəsinə də müraciət etmişəm.

Polkovnik Abdulla Qurbani medalı şəhidin valideynlərinə təqdim etdi.

Sonda Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı cənab Asif Hüseynov rayon əhalisi adından əminliklə bildirdi ki, Ali Baş Komandanın əmri ilə hər birimiz düşmənlə döyüşməyə hazırıq.

«ÇIRAQ»

## GÖRKƏMLİ AKADEMİKİN XATİRƏSİ ANILMIŞDIR

Bu günlərdə Siyəzən rayon Mədəniyyət Mərkəzində XX əsr Azərbaycan tibb elminin görkəmli simalarından sayılan Zərifə xanım Əliyevanın xatirəsi anılmışdır.

Tədbiri giriş sözü ilə Mədəniyyət Mərkəzinin direktoru Ziyada Dadaşova açaraq gözəl ana, vəfalı ömür-gün yoldaşı, dəyərli ziyalı, böyük oftolmoloq alim Zərifə xanım Əliyevanın həyatı və elmi fəaliyyəti barədə ətraflı məlumat vermişdir.

Daha sonra çıxış edənlər-Siyəzən rayon Poliklinikasının oftolmoloqu Zamiq həkim, pediatr Kəmalə Cavadova akademik Zərifə Əliyevanın alim kimi qazandığı uğurların Azərbaycan tibb elminin tarixində ayrıca bir mərhələ təşkil etdiyini diqqətə çatdırmışlar.

Sonda görkəmli akademik Zərifə Əliyevanın həyatından bəhs edən sənədli film nümayiş etdirilmişdir.

**Ziyada DADAŞOVA,**
**Mədəniyyət Mərkəzinin direktoru.**

## «HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN GƏNCLİYİ»

Siyəzən rayon Gənclər və İdman idarəsi, YAP Siyəzən rayon Təşkilatı və Təhsil Şöbəsi ilə birgə rayon tam orta məktəblərinin VIII-XI sinif şagirdləri arasında 22 aprel 2016-cı il tarixdə elan etdiyi ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş «Heydər Əliyev və Azərbaycan Gəncliyi» mövzusunda inşa-yazı müsabiqəsinə yekun vurulmuşdur. Bununla əlaqədar 6 may 2016-cı il tarixdə Heydər Əliyev Mərkəzində təşkil olunan tədbirdə Gənclər və İdman idarəsinin, Siyəzən Rayon İcra Hakimiyyətinin, YAP Siyəzən rayon təşkilatının, Təhsil Şöbəsinin, həmçinin şəhər və kənd tam orta məktəblərinin nümayəndələri iştirak edib. Müsabiqəyə ümumilikdə 50-yə yaxın şagirdin inşa yazısı təqdim olunub.

Tədbirdə şagirdlər əvvəlcə ümummilli lider Heydər Əliyevin həyat və yaradıcılığını əks etdirən foto-stendlərlə tanış olublar. Dəyirmi masa ətrafında davam etdirilən tədbirdə Gənclər və İdman İdarəsinin rəisi Nadir Məmmədov, YAP Siyəzən rayon Təşkilatının sədri Etibar Heydərov və Təhsil Şöbəsinin məsul işçisi Cəfər Bağırov çıxış edərək, ümummilli liderin Azərbaycana rəhbərlik etdiyi dövrdə gənclərə göstərdiyi qayğıdan və tədbirin əhəmiyyətindən danışıblar. Çıxışlardan sonra I və II yerləri tutmuş məktəblilərin inşa-yazıları oxunub. Daha sonra ümummilli liderin keçdiyi həyat yolundan bəhs edən sənədli filmə baxış keçirilib.

Tədbirin sonunda isə yer tutmuş şagirdlər Gənclər və İdman idarəsinin fəxri fərmanları və qiymətli hədiyyələri ilə mükafatlandırılıblar. Müsabiqənin yekun nəticəsinə əsasən, 3 saylı tam orta məktəbin şagirdi İsmayılova Zərifə I, 1 saylı tam orta məktəbin şagirdi İlyasova Günay II, 2 saylı tam orta məktəbin şagirdi İsgəndərova Ləman III yeri tutdular. 2 saylı tam orta məktəbin şagirdləri Cəbiyev Tamerlan və Qədəşova Şamilə, 4 saylı tam orta məktəbin şagirdi Mustafayeva Səyad, 5 saylı tam orta məktəbin şagirdi Novruzova Şəbnəm, 6 saylı məktəb-liseyin şagirdi Zərbəliyeva Zəhra, Gilgilçay qəsəbə tam orta məktəbin şagirdi Yarıyeva Ramilə, Yenikənd kənd tam orta məktəbin şagirdi Mirzəzadə Bəturə, Məşrif kənd tam orta məktəbin şagirdi Əsədova Gültəkin və Zarat kənd tam orta məktəbin şagirdi Əbdürrəhmanova Afaq həvəsləndirici yerlərə layiq görüldülər.

**Nadir Məmmədov,**
**Gənclər və İdman idarəsinin rəisi.**

## TAXIL YIĞIMI ZAMANI YANĞIN TƏHLÜKƏSİZLİYİ TƏDBİRLƏRİ

Bu gün taxıl tədarükü iqtisadiyyatımızda gündəmdə olan prioritet sahələrdəndir. Təsadüfi deyildir ki, son dövrlər taxıl tədarükünün artırılması, əhalinin ərzaq təminatı ilə bağlı dövlət başçımız, hökumət tərəfindən mühüm qərarlar qəbul edilmişdir.

Taxıl tədarükü ilə bağlı qarşıya qoyulan vəzifələrin həllində bu strateji əhəmiyyətli məhsulun yanğın təhlükəsizliyi də daima diqqət mərkəzində olmalı, yanğın təhlükəsizliyi ilə bağlı bütün zəruri tədbirlər həyata keçirilməlidir.

Birinci növbədə qeyd edilməlidir ki, kənd təsərrüfatı məhsullarının oddan qorunması tək yanğından mühafizə orqanları əməkdaşlarının deyil, həm də aqrar sahədə, o cümlədən fermer təsərrüfatında çalışan bütün əməkçilərin-təsərrüfat başçılarının, traktorçuların. kombaynçıların, mexanizatorların, mexaniklərin, sürücülərin və s. ümdə vəzifəsi olmalıdır.

Xüsusi olaraq qeyd edək ki, mülkiyyət formasından asılı olmayaraq hər bir təsərrüfat rəhbəri tabeliyində olan obyektlərin yanğın təhlükəsizliyinə cavabdeh şəxs kimi məsuliyyət daşıyır. Həmçinin ot biçini və taxıl yığımı başlayan vaxtdan qurtaranadək təsərrüfat rəhbərləri yanğın təhlükəsizliyi qaydalarına əməl olunmasını tam təmin etməli, bununla əlaqədar kənd təsərrüfatı işçiləri arasında müvafiq maarifləndirmə işləri aparmalıdırlar.

Taxıl və ot yığımına başlamazdan bütün təsərrüfat rəhbərləri, biçində iştirak edən hər bir şəxs kənd təsərrüfatı texnikasını yanğına qarşı hazırlamalı, ilkin odsöndürmə vasitələri ilə tam təmin etməlidirlər. Dənli və texniki bitkilərin yığılması, daşınması, emalı və saxlanması dövründə yanğın təhlükəsizliyinə nəzarət etmək üçün əmrlə cavabdeh şəxslər təyin edilməlidir.

Məhsul yığımında iştirak edən traktor və kombayn sürücüləri, onların köməkçiləri, digər mexanizatorlar, eləcə də məhsul yığımına cəlb edilən hər bir şəxs qanunvericilikdə nəzərdə tutulmuş qaydada xüsusi proqram üzrə yanğına qarşı təlimat keçməlidir. Yanğın təhlükəsizliyi üzrə təlimat almayan şəxsə məhsul yığımında iştirak etməyə icazə verilməməlidir.

Məhsul yığımında iştirak edən texnikanın hamısı işə başlamazdan əvvəl yanğına qarşı texniki müayinədən keçirilməli, onların yanğın təhlükəsizliyi tələblərinə cavab vermələri barədə akt tərtib edildikdən sonra sahəyə buraxılmalıdır.

Məhsul yığımında iştirak edən bütün texnikaların, mühərriklərin atqı boruları qığılcımsöndürənlərlə təmin edilməlidir.

Tarla düşərgələrində, taxıl təmizləmə xırmanlarında, ot və küləş tayları yığılan sahələrdə siqaret çəkmək üçün xüsusi yer ayrılmalı və həmin yer ilkin yanğınsöndürmə vasitələri ilə təmin edilməli, eləcə də üzərində «Siqaret çəkmək yeri» yazılmış lövhə asılmalıdır. Digər sahələrdə siqaret çəkmək, açıq oddan istifadə etmək qəti qadağandır.

Məhsul yığımı dövründə bir sıra zəruri yanğın təhlükəsizliyi tədbirləri həyata keçirilməlidir. Biçin işi aparılan taxıl zəmilərinin yaxınlığında baş verə biləcək yanğınların qarşısını almaq məqsədi ilə kotanlı traktorlar olmalı, taxıl zəmilərində və onların yaxınlığında küləş yandırılması və tonqal qalanmasına yol verilməməlidir. Tarla şəraitində traktor, kombayn və digər maşınların yanacaqla təmin edilməsi onların mühərriklərinin işi dayandırıldıqdan sonra yanacaqdoldurucu maşınlarla həyata keçirilməlidir. Gecə vaxtı maşınların yanacaqla doldurulması qəti qadağandır.

Yığım maşınlarının diyircəklərinin və digər sürtülən hissələrinin qızmasının qarşısını almaq məqsədi ilə onların vaxtlıvaxtında yağlanmasına və etibarlı bərkidilməsinə ciddi nəzarət olunmalı, kombaynların, digər texnikaların fırlanan mexanizmlərinə dolaşan küləş kütləsi vaxtlıvaxtında təmizlənməlidir.

Taxıl xırmanları bina və tikintilərdən 50 metr, taxıl zəmilərindən 100 metr aralıda yerləşdirilməlidir. Xırmanların sahələri bitki örtüyündən (otdan) mütləq təmizlənməli, ətrafı 4 metr enində şumlanmalıdır.

Bir daha xatırladırıq ki, kənd təsərrüfatı məhsullarının, xüsusən də taxılın oddan qorunması hamının şərəf işi olmalıdır. Unutmamalıyıq ki, taxıl bərəkətdir, ruzidir və o böyük zəhmət hesabına yetişdirilir.

Elin bu əvəzsiz sərvətini yanğından qoruyun!

FHN

## VƏTƏN BÖLÜNMƏZ, ORDUMUZ YENİLMƏZ

Hər bir azərbaycanlı üçün «Vətən» kəlməsi, «Vətən» məfhumu çox əzizdir. Vətəni, torpağı düşməndən qoruyan igid övladlar şəhidlik zirvəsinə yüksəlməklə müqəddəs hesab olunurlar. Vətən torpağından pay olmaz, torpaq uğrunda şəhid olanlar isə unudulmazdır.

4 may 2016-cı il tarixində Siyəzən şəhər 3 saylı tam orta məktəbində Siyəzənin ilk şəhid övladı, elə bu məktəbin adını daşıdığı Şirin İsmayılovun anadan olmasının 45 illiyinə həsr olunmuş tədbirin keçirilməsi də şəhidlərin hər zaman unudulmaz olduğunu göstərdi.

Tədbir dövlət himninin oxunması ilə başlandı. Tədbirin aparıcısı məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi Tünzalə Məmmədova tədbir haqqında məlumat verdikdən sonra bir dəqiqəlik sükutla şəhidlərimizin ruhu yad edildi.

Sonra tədbir ssenariyə uyğun olaraq davam etdirildi. XIb sinif şagirdi Taleh Məmmədovun ifasında Şirinin dili ilə söylənilən «Xatırla məni» şeirinin qeybdən səsləndirilməsi ürəkləri riqqətə gətirdi. IX sinif şagirdi Gülbəyaz Nəcəfova şəhid Şirin İsmayılovun tərcümeyi-halı haqqında məlumat verdi. Bundan sonra şəhidlərin ruhuna hörmət əlaməti olaraq şəhər məktəblərinin gənc hərbçiləri meydana dəvət olundu. Onların hərbi marşla tribuna önündən keçməsi tədbiri daha maraqlı etdi. Azərbaycan dili və ədəbiyyat müəllimi Sima Məmmədova şəhidlə bağlı xatirələrini danışdı. Söz Şirinin sinif yoldaşı, uzun illər onunla bir partada əyləşmiş Əsbə xanıma verildi. O, unudulmaz məktəb xatirələrini yada saldı. Tədbirin aparıcısı şəhid Ş. İsmayılovun «Atəşli» təxəllüsü ilə şeirlər yazdığını qeyd edərək sözü 1 saylı tam orta məktəbin direktoru, şair Nəcməddin Mürvətova verdi. Nəcməddin müəllim ürək sözlərini iştirakçılara şeirlə çatdırdı. Sonra Şirinin cəbhədən anasına yazdığı məktub oxundu.

Tədbirdə iştirak edən QMƏV-ŞAİB sədri N. Əliyev, Siyəzən Rayon İcra Hakimiyyətinin məsul işçisi B. Balabəyov, Təhsil Şöbəsinin metodkabinet direktoru C. Bağırov və başqaları çıxış edərək şəhid Ş. İsmayılov, Qarabağda gedən döyüşlər və tədbir barədə ürək sözlərini söylədilər.

Şəhid Ş. İsmayılovun bacısı Leyla xanım da çıxış edərək qardaşı ilə bağlı xatirələrini danışdı və ailə üzvləri adından tədbirin təşkilatçılarına təşəkkürünü bildirdi.

Sonda məktəbin direktoru Rafiq Yarıyev 3 saylı tam orta məktəbinin şanlı ənənələri olduğunu, məktəbdə hərbi vətənpərvərlik tərbiyəsinə xüsusi diqqət yetirildiyini, şagirdlərimizin əsgər və şəhidlərimizin layiqli davamçısı kimi yetişdirildiyini qeyd etdi.

**Telman Məmmədov,**
**3 saylı tam orta məktəbin tərbiyə işləri üzrə direktor müavini.**

## YARIŞ KEÇİRİLMİŞDİR

7-9 may tarixlərdə Siyəzən Palace ticarət və istirahət mərkəzində ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr edilmiş nərd yarışı keçirilmişdir.

Yarışda 1-ci yeri Əhmədov Bahadır, 2-ci yeri İsgəndərov Fuad, 3-cü yeri isə Mirzəyev Ceyhun tutmuşdur.

Müvafiq yeri tutmuş idmançılar Siyəzən Palace ticarət və istirahət mərkəzinin həmkarlar ittifaqı təşkilatının qiymətli xatirə hədiyyələri və diplomları ilə mükafatlandırılmışlar.

**B. ƏHMƏDOV.**

## ALLAH RƏHMƏT ELƏSİN!

Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı Asif Hüseynov və aparatın kollektivi Hüquq şöbəsinin müdiri Şəmşad Əliyevə bacısı

**Gülruxun**

vaxtsız vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

---

«Çıraq» qəzetinin kollektivi iş yoldaşları Reyhan Muradovaya qızı

**Gülruxun**

vaxtsız vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verir.

---

Aydın Tağıyev və İlyas İlyasov ailə üzvləri ilə birlikdə Siyəzən Rayon İcra Hakimiyyəti Hüquq şöbəsinin müdiri Şəmşad Əliyevə və Reyhan Muradovaya əzizləri

**Gülruxun**

vaxtsız vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

## İTMİŞDİR

Xeyrullayev Təvəkkül Hacı oğlunun adına verilmiş MTZ-80 markalı traktora məxsus Az-17 T-165 nömrə nişanı itdiyi üçün etibarsız sayılır.

Redaktor İlyas İLYASOV

Təsisçilər: Siyəzən Rayon İcra Hakimiyyəti başçısının aparatı və redaksiyanın jurnalist kollektivi

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydə alınmışdır Qeydiyyat № 314
Redaksiyanın ünvanı: Siyəzən şəhəri, Şəhriyar küçəsi, 1a

Qəzet "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur

Sifariş 1410
Tiraj 500
"Kapitalbank"ın Siyəzən filialı
AZ 20 AİİB
33080019445500250155
kod 200554
VÖEN 7100046791
telefon: 304-04-83